**2023-cü il fevralın 6-da qardaş Türkiyə dövləti çətin sınaq qarşısında qaldı. Kahramanmaraşda baş vermiş 7,7 maqnitudalı zəlzələ böyük miqyasda dağıntılara və 55 mindən çox insanın ölümünə səbəb oldu. Bu xəbər bütün Azərbaycanı sarsıtdı. Elə ilk dəqiqələrindən heç bir yardım çağırışını gözləmədən xalqımız və dövlətimiz öz qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi. Prezident İlham Əliyev fevralın 6-da türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana başsağlığı verdi. Dövlət başçısı Türkiyəyə hər cür dəstək göstərməyə hazır olduğunu bildirdi.**



# Kahramanmaraşda yazılan tarix



Fevralın 8-də Türkiyənin ölkəmizdəki səfirliyinə gələn Prezident qeyd etdi ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, həmrəyliyimizi daim nümayiş etdirmişik: "Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə".

Dağıntılar altından çıxarılan cansız bədənlər hamını göz yaşlarına boğurdu. Soyuq, şaxtalı havada ailələr, zəlzələdən sağ çıxan insanlar müxtəlif ölkələrdən gələn yardım çadırlarında gecələyirdilər. Fəlakətin vurduğu ziyan çox böyük idi, bölgə viran qalmışdı, insanların aldığı psixoloji zərbə fəlakətin törətdiyi dəhşətləri daha da ağırlaşdırırdı. Bütün bunlara baxmayaraq, zərərçəkənlər ümidlərini, inamlarını itirmir, hər an dağıntılar altından kiminsə sağ çıxacağını ümidlə gözləyirdilər.

Bəli, bu, iki qardaş, dost ölkənin böyük sınaq qarşısında birliyi ilə yanaşı, həm də mübarizə əzminin nümayişi oldu. Zəlzələnin törətdiyi faciələr qarşısında insanlar kədər və qüssə çəkməkdən daha çox kömək, yardım haqqında düşünürdü. Bu hadisə türk dünyasını bir araya gətirdi. Hamı zərərçəkmiş insanlara maddi-mənəvi köməyə tələsdi. Bütün Azərbaycan isə ayaqda idi. Ən sadə vətəndaşdan tutmuş məmura kimi hamı yardım etmək üçün can atdı. Qışın sərt, soyuq havasında isti ocaqları, evləri dağılan insanlar çadırlarda yaşamaq məcburiyyətində qaldılar. Hamı zərərçəkən insanlara ana, ata, bacı, qardaş oldu. Kimi ərzaq, kimi pul, kimi isti geyimlər göndərdi. Hətta təqaüddə olan baba və nənələrimiz belə təşkil edilmiş məntəqələrə gələrək yardım etmək istədiklərini bildirirdilər. Bu, böyük bir həyat dərsi oldu. İnsanlar ən çətin gündə birləşdi dərdini bölüşdü.



Dövlət başçısı İlham Əliyevin göstərişi ilə Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə Fövqəladə Hallar Nazirliyinin ilkin olaraq 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri qardaş ölkəyə yola düşdü. Həmin xilasedicilər Kahramanmaraşda və zəlzələdən ziyan görmüş, dağıntılara məruz qalmış ətraf ərazilərdə böyük fədakarlıq göstərdilər. Onlar dağıntılar altından 53 nəfəri sağ, 741 nəfərin isə cəsədini çıxardılar. Bu fədakarlıq Türkiyənin əksər media vasitələri tərəfindən geniş işıqlandırıldı. Azərbaycan son ana qədər Türkiyə xalqının yanında oldu. Təkcə Kahramanmaraşda deyil, zəlzələnin baş verdiyi digər bölgələrdə də azərbaycanlı xilasedicilər əzmlə çalışdılar.



Kahramanmaraşda yaradılan 2 səhra xəstəxanasında 41 həkim və səhiyyə işçisi çalışır, psixoloqlar yerlərdə zəlzələdən zərərçəkənlərə dəstək olurdular. Azərbaycandan gələn heyət tərəfindən Kahramanmaraş və rayonlarda 10 yerdə çadır şəhərciyi yaradıldı. Son dəqiqəyə kimi azərbaycanlı xilasedicilər qardaş ölkədə fəaliyyət göstərdilər. Çox çətin anlar yaşanırdı. Ailə üzvləri bir-birindən xəbərsiz olduğu zamanda yenə də insanlar ümidlərini itirmirdilər. Türkiyədə baş verən zəlzələ insanlıq dramı, faciə kimi yaddaşımıza yazıldı. Bir həftə, 10 gün dağıntılar altında ac-susuz, hərəkətsiz halda qalan insanlar xilasedicilərin əzmi, gərgin axtarışları sayəsində yenidən həyata qovuşdular. Əlbəttə ki, Türkiyədə baş verən zəlzələ uzun illər insanların yaddaşından silinməyəcək. Çünki bu hadisə nəticəsində çox faciələrlə qarşılaşdıq. Bütöv bir ailənin məhvi, körpə uşaqların çarəsizcə dağıntılar altında can verməsi neçə-neçə arzuları puç etdi.

Lakin həyat davam edir. Dağılan evlər, şəhərlər yenidən qurulur, abadlaşır. Karamanmaraşda tarix yazılır. Zəlzələ nəticəsində viran qalmış, dağılmış evlərin, məhəllələrin yerində abad şəhər salınır. Bu işdə Azərbaycan dövləti də yaxından iştirak edir. Zəlzələnin baş verməsindən az müddət sonra dövlətimiz Kahramanmaraşda 100 milyon dollarlıq tikinti işləri aparmağa başladı. "Azərbaycan və Türkiyə arasında Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzi tikintisi barədə əməkdaşlıq haqqında" saziş 2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində imzalandı. Ümumi sahəsi 32 hektar olan "Azərbaycan" məhəlləsi əsasən yaşayış binaları, ibtidai məktəb və uşaq bağçası, mədəniyyət mərkəzindən ibarətdir. 71 yaşayış binasında 2, 3 və 4 otaqlı 1323 mənzildə məskunlaşacaq sakinlərin iş yerləri ilə təmin olunması məqsədilə 799 qeyri-yaşayış (ticarət) obyekti istifadəyə veriləcək. Azərbaycan dövlətinin dəstəyi ilə Kahramanmaraşda inşası davam edən "Azərbaycan" məhəlləsində tikinti işləri tamamilə yekunlaşmaq üzrədir.

Artıq hazır olan mənzillərin ilk sahibləri bu gün məlum olacaq. Yenidən evlərin işıqları yanacaq. Evlərə, küçələrə qonaq gedənlərin üz tutduqları ünvan "Azərbaycan" məhəlləsi olacaq. Tikinti işlərinin yekunlaşmasından sonra burada bütün infrastruktur tam gücü ilə sakinlərə xidmət edəcək. Onu da qeyd edək ki, artıq ötən ildən "Azərbaycan" məhəlləsində Heydər Əliyev adına məktəb fəaliyyət göstərir.

Azərbaycan qardaş Türkiyənin xoş günündə olduğu kimi, dar günündə də yanındadır. Əsrlərin, qərinələrin sınağından çıxmış bu dostluq, qardaşlıq daim özünü göstərir. Heydər Əliyevin "Bir millət, iki dövlət", Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları isə iki dövlətin münasibətlərinin yol xəritəsidir.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**